

**MƏMMƏDHƏNİFƏ MUSAYEV,**
Müəllimləri təkmilləşdirmə
institutunun direktoru

## HEYDƏR ƏLİYEV QURTULUŞUMUZUN SƏRKƏRDƏSİDİR

Qurtuluş Gününün Azərbaycan vətəndaşının yaşam tərzində, təfəkküründə, taleyində xüsusi yeri vardı. Bütün kontekstlərdə bu tarixi məqam dönüş nöqtəsi olaraq uçurumdan yüksəlişə, xaosdan qurtuluşa, iflasdan inkişafa doğru yönüm verib və bu nailiyyətlər tək dövlət miqyasında deyil, həm də şəxsi motivdə də sosial durumumuzdan tutmuş sabit yaşamımıza qədər bütün müstəvilərdə pozitiv məcrada əks olunur.

Tarixi dönüş məqamını necə dərk edirik? Bu günün əhəmiyyətini gələcək nəsillərə düzgün çatdıra biləcəkmi. Əlbəttə ki, Qurtuluş Gününün mahiyyətini yalnız tarixi kontekstdə izah etmək düzgün deyil. Bu tarixi gün bütün sahələrdə-sosial, siyasi, ictimai, beynəlxalq həyat və digər yönümlərdə öz təsdiqini tapdığından 15 iyunla bağlı ictimaiyyət daha geniş bilgilərə malik olmalıdır. 15 iyun Azərbaycanda hansı prosesləri dəyişdirdi və hansı proseslərin inkişafına rəvac verdi? Bu sual indi çox təkrarlanır. Bəzən hətta qərəzli formada. Şübhəsiz ki, bu günün tarixi dəyəri ilə bağlı ən sanballı sözü gələcək nəsillər söyləyəcək. Ancaq indi Qurtuluş Gününün Azərbaycan xalqının yaşamında yaratdığı inkişaf məqamları barədə də mülahizələr söyləmək olar. İlk növbədə Azərbaycanın parçalanması planı iflasa uğradı və bundan sonra Azərbaycan rahat nəfəs alaraq problemlərinin həlli ilə məşğul olmağa başladı. Elə bu məcrada da xeyli problemlərlə üzləşdik. Qiyamların, dövlət çevrilişinə cəhdlərinin qarşısı «XALQ-HEYDƏR» vəhdətinin təntənəsi ilə alındı. Ölkədə kriminogen durumu gərginləşdirən qanunsuz silahlı birləşmələr zərərsizləşdirildi. Bir sözlə,iqtisadi-sosial inkişafa stimul olacaq siyasi sabitlik bərqərar edildi.

İqtisadiyyatda artım templəri istehsal prosesinin normal axara qədəm qoyması, Ümumi Daxili Məhsulun artması,əhalinin gəlirlərinin hiss olunacaq dərəcədə yüksəlməsi, özəlləşmə prosesinin artıq uğurlu nəticələr verməsi, iqtisadi sferanın inkişafını təmin edən hüquqi qanunvericilik bazasının təşkil olunması məhz 15 iyundan başlamış dirçəlişin təzahürüdür. Ölkəyə həcmi milyard dollarla ölçülən investisiyaların cəlb edilməsi və bu sərmayələrin daha uğurlu formada istehsala tətbiq olunması Azərbaycanı yaxın illərdə inkişaf etmiş dövlətlər arasına çıxaracaq.

1993-cü ilədək yalnız neft buruğu formasında olan Bakı kimi təsəvvür yaradan Azərbaycanın adı və haqq səsi tez bir zamanda beynəlxalq qurumlarda xarici dövlət başçılarının mövqeyində öz təsbitini tapdı. «Təcavüzkar», «Varvar müsəlman» ölkəsi kimi tanıdılan dövlətimiz qısa zaman kəsiyində Avropa evinə inteqrasiya yönümündə uğurlar qazandı.Ölkədə gedən demokratik birləşmə prosesi Avropa Şurası kimi mühüm təsisata üzv olmağımızı tezləşdirdi.Azərbaycan lobbisinin formalaşması prosesi başladı. Ən əsası xaricdə yaşayan həmvətənlərimizə «Azərbaycan davasının» aparmağın şərəfi anladıldı.





Ölkədə təşəkkül tapan ictimai sabitlik siyasi kontekstdə illər boyu mövcud olan gərginliyi aradan qaldırdı.Azərbaycan insanının öz mövqeyini azad,ədalətlə, şəffaf seçkilərdə ifadə etməsi üçün şərait yaradıldı.Dövlət quruculuq prosesində inamlı uğurlar qazanıldı, hüquqi qanunvericilik bazası formalaşdı və zaman-zaman təkmilləşdirilir. Dövlət institutları müstəqil Azərbaycanın maraqlarına, tələblərinə uyğunlaşdırıldı və aparılan struktur islahatları nəticəsində mütəmadi olaraq yeni dövrün xarakteristikasına adaptasiya edildi və yeni mühüm dövlət qurumları yaradıldı.Bütün müsbət dəyişiklikləri elə bir sözlə də ifadə etmək olar:Qurtuluş Günü xalqa Azərbaycanı qaytardı—inkişaf edən,demokratik,müstəqil və Yeni Azərbaycanı. Bütün bunlar üçün xalqımız ölkə başçısı Heydər Əliyevə minnətdardır. Əlbəttə ki, yuxarıda qeyd edilənlər ölkə başçısı Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra əldə edilmiş nailiyyətlərin göstəriciləridir.

Ötən hadisələrə bugünkü prizmadan qiymət verərkən müstəqilliyimizin möhkəmləndirilməsi və qazanılmış nailiyyətlərin heç də asanlıqla başa gəlmədiyinin şahidi oluruq. Ağı qaradan, yaxşını pisdən zərgər dəqiqliyi ilə seçməyi bacaran xalqımız xaosdan sabitliyə, siyasi böhrandan demokratiyaya doğru inamla irəliləyən Azərbaycanımızda artıq arxayınçılıqla yaşayırlar. Faciəli iyun hadisələrindən bizi ayıran zaman kəsiyi peşəkar siyasətlə məşğul olan hər bir ölkə vətəndaşının siyasi yaddaşında özünəməxsus iz qoymuşdur. Siyasi yönümünə görə müxalifət düşərgəsinə aid olan və baş verən qiyamda bilavasitə məsuliyyət daşıyan partiya «liderləri» bu günün bayram kimi qeyd olunmasını mənfi emosiyalarla qarşılayırlar. Halbuki həmin dövrdə baş verən hadisələrə bir anlığa tarixi ekskursiya etsək, diqqəti cəlb edən məqamların şahidi olarıq. Hakimiyyətdə yaranmış qarşıdurma nəticə etibarı ilə Vətəndaş müharibəsinə gətirib çıxartdı. Artıq dövlət parçalanma təhlükəsi qarşısında idi. Belə bir anda Ə.Elçibəy tərəfindən milli qəhrəman adına layiq görülmüş və qısa müddət ərzində böyük siyasi fiqura çevrilən Surət Hüseynov öz hakimiyyət ehtirasını büruzə verdi. Mərkəzdə yaranmış anarxiya baş nazir Pənah Hüseynov və Ali Sovetin sədri İsa Qəmbər arasında qarşıdurma ilə sonuclandı. Müdafiə naziri Rəhim Qazıyev baş verən «saray çəkişmələrində», sadəcə qurbana çevrilərək vəzifədən uzaqlaşdırıldı. Hakimiyyətdə yaranan xaos və Gəncədə Surət Hüseynovun mərkəzə doğru istiqamət götürməsi həqiqətən vəziyyətin gərgin olduğunu sübuta yetirirdi. Belə bir xaotik durumda bədnam qonşularımız fürsəti əldən verməyərək torpaqlarımızın geniş miqyaslı işğalı planını hazırlayırdılar. Xalq artıq mərkəzdə gedən oyunlardan bezərək, səriştəsiz idarəçilərin istefasını tələb edirdi. Belə ağır gündə xalqın yeganə ümid çırağı Heydər Əliyev idi. Əlbəttə ki, xalqın haqlı tələbindən və

ölkədə yaranmış çətin vəziyyətdən yaxa qurtarmaq üçün hakimiyyətdə olanlar Heydər Əliyevin Bakıya dəvət edilməsini nicat yolu hesab edirdilər.

Gəncədə prezident qvardiyası ilə Surət Hüseynovun komandanlığı altında olan əsgərlər arasında qardaş qırğınının baş verməsi Əbülfəz Elçibəy hakimiyyətinin sonunu göstərdi. Siyasi böhran Ali Sovetin sədri İsa Qəmbər və baş nazir Pənah Hüseynovun istefa verməsi ilə nəticələndi. Xalqın təkidli xahişi ilə Heydər Əliyev Bakıya dəvət edildi. Bununla da, xalq həqiqi mənada düşdüyü bəladan qurtarmış oldu. Şübhəsiz ki, bu, bizim ən yeni tariximiz olması ilə hər il araşdırmalara və faktların üzə çıxarılmasına ehtiyac duyur. AXC-Müsavat hakimiyyətinin birillik idarəçiliyi dövründə yüksək postları tutmuş və bu gün də yüksək amallarda onların söylədikləri məntiqsiz fikirlər ikrah hissi doğurur. «Bizim dövlət idarəçiliyində səriştəmiz yox idi» fikri ilə məsuliyyətdən yaxalarını çəkməyə çalışan bu şəxslər qardaş qanunu tökmək kimi bir cinayətdə suçlu sayılırlar. İsa Qəmbərin, Pənah Hüseynovun hazırda da hakimiyyətə yiyələnmək üçün ciddi cəhdlə oriyentasiyaları məntiqsiz görünür. Siyasət aləmində «əli qana batmış» şəxslərin zühur edərək şəxsi ambisiyalarla çıxış etmələri və keçmişlərinə göz yummaları, doğrudan da, paradoksdur. Yaddaşlar çözələndikcə siyasət aləmində manqurtlaşmış simaların kimliyi bəlli olur. Müdrik xalqımız artıq özlərini «vətənpərvər» kimi qələmə verən və siyasi cəhətdən korlanmış müxalifəti yaxşı tanıyır. Siyasət dünyasında xüsusi dəsti-xətti ilə seçilən Heydər Əliyev şəxsiyyəti bu gün sabitliyimizin ən böyük qarantı hesab edilir. Xalq öz müdrik liderinə dəstər verərək, 15 iyun Qurtuluş Gününü təntənə il qeyd edir. Artıq arxayınçılıqla demək olar ki, xalqın taleyi etibarlı əllərdədir. Avantürist insanların ikiüzlü simasına xalq daha inanmır. Siyasi şou düzəldərək ətrafına kütlələri yığmaq cəhdində bulunan müxalifətin artıq imkan limiti də tükənmişdir. Çünki biz XXI əsrdə yaşayırıq. Xalqı aldadaraq şəxsi maraqlarını həyata keçirmək istəyən müxalifət iflasa məhkumdur.

Bu gün siyasi mübarizədə sivil metodlarından istifadə edilir. Avropaya inteqrasiya etdiyimiz bir zamanda müxalifətin köhnəlmiş mübarizə vasitələrindən istifadə etməsi kara gəlmir. Xalqımızın layiqli liderinin ətrafında sıx birləşərək, Qurtuluş Gününü qələbə günü ilə əvəzləyəcəyinə çox vaxt qalmayıb. Buna hamı ürəkdən inanır.

İndi Azərbaycanı dünya tanıyır, inkişaf etmiş ölkələr tərəfindən demokratik, sivil dövlət kimi qəbul edilir. Bütün bunlar möhtərəm Heydər Əliyev cənablarının müdrik siyasətinin nəticəsidir. Buna baxmayaraq, qarşıda böyük və möhtəşəm vəzifələr durur. Azərbaycan xalqı əmindir ki, müdrik rəhbərimiz və ağsaqqalımızın himayəsində qarşıda dayanan bütün problemlər həll olunacaq, işğal edilmiş torpaqlarımız qəsbkarlıqdan təmizlənəcək, qaçqın soydaşlarımız da öz torpaqlarına qayıdacaqlar.